# “Nəsimi dühası - 650 il”




Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və rayon Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ilin “Nəsimi İli” elan olunması və dahi Azərbaycan şairinin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar “Nəsimi dühası - 650 il” adlı layihəyə çərçivəsində növbəti tədbir baş tutub.

Təsdiq edilmiş qrafikə uyğun olaraq layihə çərçivəsində 306 nömrəli tam orta məktəbin akt zalında tədbir keçirilib. Tədbir 306 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında Nəsimiyə həsr edilmiş tamaşa ilə açıq elan edib, daha sonra şagirdlər müxtəlif qəzəllər ifa edilib, musiqilər səsləndiriblər. Şagirdlərin iştirakı ilə “Nəsimi - 650” adlı fləşmobdan ibarət videoçarx nümayiş edilib.

Çıxış edən 306 nömrəli tam orta məktəbin direktoru Gültəkin Ədilova dahi Azərbaycan şairi və mütəfəkkiri böyük ustad İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin “Nəsimi İli” elan edilməsinin şairə verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisi olduğunu bildirib.

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov İmadəddin Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımların məhz ulu öndər Heydər Əliyev tərəfindən atıldığını bildirdi. R.Göyüşov Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirlər siyahısına daxil edildiyini və 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunduğunu da vurğulayıb.

İki sahil.- 2019.- 6 noyabr.- S.5.